**ZÜMRÜD RƏSULZADƏ**
**Bakı Avrasiya Universiteti**
**Həsən Əliyev 135 a**
**zumrudemerald@gmail.com**

# QUSTAV FLOBERIN “MADAM BOVARI” VƏ “SADƏLÖVH” ƏSƏRLƏRINDƏ QADININ MƏNƏVI-RUHI ALƏMININ TƏSVIRI

Xülasə:

Məqalədə Qustav Floberin “Madam Bovari” və “Sadaəlövh” əsərlərindəki qadın obrazlarının təhlili aparılır. “Madam Bovari”də insanın mənəvi-ruhi aləmində baş verən, ağılla, şüurla dərk olunmayan hislərin izah olunur. Eyni zamanda Flober Emma obrazı ilə özünə qədər yazılmış daim romantik arzularla yaşayan qadın obrazlarına kinayə ilə gülür. Flober ailə sədaqətsizliyi kimi geniş yayılmış bu hadisənin köklərini burjua nikahındakı mənəviyyatsızlıqda görür. Bütün bunlarla bərabər Emma meşşan insanlar arasında yeganə canlı obrazdır ki, özünə bəzən bəraət qazanır. Romanda həqiqi insan hislərinə düşmən olan mövcud ictimai quruluş tənqid olunur.

Müəllifin yaradıcılığında digər mühüm əsərlərdən biri də “Sadəlövh”dür ki, burada Flober Felisite obrazı ilə bütün yaradıcılığı boyu davam etdirdiyi ənənəni pozur. Flober əsərin adının izahını Felisite obrazı ilə tamamən açıqlayır. Felisitenin əsas psixoloji keyfiyyəti onun sadəlövhlüyüdür. Floberin fikri bu idi ki, bu xüsusiyyət heç də səfehlik, axmaqlıq deyildir. Eyni zamanda, bu da göstərilir ki, sadə insanların da zəngin daxili aləmi olur, onların da məhəbbəti böyük olur, fədakarlıq edə bilirlər.

Mövcud gerçəkliyə daim kinayə ilə baxan bir yazıçının yaradıcılığının yekununda belə bir mövzu seçməsi təəccüblü hal deyil. Bu obraz müəllifin indiyə qədər yaratdığı qəhrəmanların bədii yekunu və Floberin avtoportretidir. Yazıçı bu əsərdə Felisite vasitəsi ilə daha çox şəxsi hiss- həyəcanlarını ifadə etmiş və daha dəqiq desək, öz şəxsi hisləri ilə bu qəhrəmanı zənginləşdirmişdir.

Açar sözlər: qadın obrazı, daxili aləm, romantizmi tənqid, burjua cəmiyyəti, kinayə

Qustav Flober 1851-57-ci illərdə “Madam Bovari.Əyalət adətləri” (Bundan sonra “Madam Bovari”) romanını yazmışdır. “Madam Bovari” romanı öz məzmun orijinallığı, üslubi özünəməxsusluğuna görə o dövrədək yazılmış bütün romanlardan fərqlənirdi.

Yazıçının bu şah əsəri dünya ədəbiyyatına ən qalmaqallı əsərlərdən biri kimi düşmüşdür. Bu əsər elə bir dövrdə yazılmışdır ki, burjua mühitinin meşşanlığı qadınları boğurdu. Flober Emmanın facisəini əks etdirərək “Bovari mən özüməm” deyirdi. O, Emmanın simasında burjua mühitinin meşşanlığını tənqid edirdi.

Artıq 30-cu illərdə psixoloji roman ənənələri fransız ədəbiyyatında yaranmağa başlamışdı. Floberin də yaradıcılıq metodu bu istiqamətdədir. Madam Bovarinin fəlsəfi iztirabında da bunu görürük. Professor B.Q.Reizov yazır: “30-u illərdə psixoloji roman inkişaf etməyə başlayır və fəlsəfi problem psixoloji problemlə əvəz olunur. Jül Janen, Güttünger, Sent-Böv, Müsse, hətta, Jorj Sand aralarında olan bütün fərqlərə baxmayaraq fəlsəfi və ictimai problemləri müasir insanın əxlaqi şüurunu öyrənərək psixoloji təhlil metodu ilə həll edirdilər”. (4, 223)

Yazıçı bu romanın baş qəhrəmanı kimi, ağılla yox, hisləri ilə yaşayan, öz hislərindən baş çıxara bilməyən natamam təhsilli əyalət qadınını seçmişdir O,özünə də dumanlı olan və eyni dərəcədə də müəmmalı olan estetik ideallarıın, ənənəvi tərbiyənin, mühitin idarə etdiyi hislərin hökmü ilə yaşayır. Elə ona görə də sadə məntiq belə psixologiyanı izah etməyə acizdir” (1, 162).

Emma, ilk baxışda, səviyyəsinə, dünyagörüşünə görə ətrafdakılardan heç də fərqlənməyən bir qadındır. O, sadəlövh ərini aldadaraq əxlaq normalarını pozur. Əslində, yazıçı oxucuya əxlaq dərsi vermək niyyətində deyil. O, öyüd verməkdən daha çox bu eybəcər hadisənin köklərini göstərir. Sent Bövün təbirincə desək, “Flober bunları burjua nikahının mənəviyyatsızlığında görür və asılı qadının

cansıxıcı ailə həyatına qarşı çıxmaqdan, onu tam mənada, bayağılığa və çirkaba sürükləyən ərinə xəyanət etməkdən başqa yolu qalmır" (5, 19)

Emma hər şeydən əvvəl, ehtirasın ondan tələb etdiyi kimi davranmır. Emmanın davranışı qeyri-rasionaldır. Onun davranışını məntiqi baxımdan qiymətləndirmək olmaz. Floberin psixoloji ustalığını görmək üçün Emmanın davranışındakı bəzi nüanslara toxunaq: Bir-birlərini sevdiklərini anlayarkən Emmanın Leonu rədd etməsi, münasibətləri pozulduqdan sonra yenidən Leona qarşı hissləri, onun özünü aldatmaları buna nümunədir. XVIII əsrin sonu-XIX əsrin əvvəllərinin materialist psixologiyasına əsaslanan o vaxta qədərki əsas metod, "hakim ehtiras" metodu idi. Personajın psixologiyası həmin ehtirasın məntiqindən ibarət olurdu.Flober bu metoddan imtina etmişdir.". (1, 162)

Bizim fikrimizcə də Madam Bovarinin davranışlarına məntiqi baxımdan qiymət vermək olmaz. Əgər bütün bunlara məntiqi baxımdan qiymət versək, bu, nə mövcud reallığa, nə normal əxlaq prinsiplərinə uyğun gələcək.Onun mənəviyyatında baş qaldıran hislər şüuraltı səviyyəsindədir.

Yazıçı bu obrazı yaradarkən qarşısına müəyyən əxlaq dərsi vermək niyyətində deyildir, o, hansısa mənəvi- əxlaqi qaydalara əsaslanmır. Müəllif, sadəcə olaraq, mümkün olmayanı əldə etmə arzusunda olanın psixologiyasını və onun nəticələrini göstərir. Flober öz qəhrəmanını nə suçlayır, nə də ona haqq qazandırır. O, öyüd verməkdən daha çox bu eybəcər hadisənin köklərini göstərir. Sent Bövün təbirincə desək, "Flober bunları burjua nikahının mənəviyyatsızlığında görür və asılı qadının cansıxıcı ailə həyatına qarşı çıxmaqdan, onu tam mənada, bayağılığa və çirkaba sürükləyən ərinə xəyanət etməkdən başqa yolu qalmır" (6, 456)

Madam Bovarinin daxili aləmində baş qaldıran ziddiyyətli hislərin səbəbini görmək üçün onu uşaqlıqdan izləyək: Monastrda təhsil alan Emma orada monastır əxlaqına uyğun olmayan bir sıra əsərlər oxuyur. Kəndə qayıdan Emma onu əhatə edən mühitlə uyğun gəlmədiyini anlayır. Bunun üçün də özünün kübar hesab etdiyi Şarl Bovariyə ərə getsə də, o, burada da axtardığını tapa bilmir. Əyalət qızı olsa da, kübar xanımlar kimi davranmaq istəyən Emma Şarlın sevgisinə məhəl qoymur. Çünki o, xoşbəxt olmadığını anlayır. Məhz elə bu nöqtədən sonra Emmanın daxili aləmində fırtınalar başlayır. Əslində, Emmanın faciəsinin təməli hələ monastırda oxuyan zaman yaranmışdı. Flober, sanki, özü də Emmanın xəyalpərvərliyinə acıyır. Bu məqamda Ş.Sent Bövün fikirlərinə qatılırıq: "Emmanı ilk uşaqlığından bizə göstərərək sonralar monastır pansionunda təhsil alan bu qızın incə və müəmmalı meylləri vasitəsilə, həm də onun təxəyyülünün çoxluğu üzündən yaranmış xəyalpərvərliyini və həssalığını təsvir edərək müəllif qəddarcasına ona gülür və - etiraf edəkmi? – elə ki, ona diqqətlə nəzər salırsan, nəticədə görürsən ki, sən bu qıza özündən daha çox mərhəmət hissi ilə yanaşırsan" (6, 454)

Flober Emma obrazı ilə öz dövründə romantik xəyallar aləmindəki ədəbi qəhrəmanları tənqid atəşinə tuturdu. O göstərir ki, insanın mənəvi aləmi mürəkkəb və çox vaxt məntiqi baxımdan izaholunmazdır.

Emmanın ölümü arzu etdiyi həyata çatmaqda etdiyi cəhdlərin onu uçuruma atmasında deyil, arzuladığı həyata heç vaxt çata bilməyəcəyinin fərqinə vardığı üçün olmuşdur.

"Madam Bovari"də hadisələrin cərəyan etdiyi məkanlar hər biri ayrı- ayrılıqda Emmanın intihar yolundakı pillələridir.

Romanın mövzusundakı ən diqqət çəkən cəhət onun romantizmi tənqididir. Emmanı öldürən zəhər deyildir. Emmanı uçuruma aparan, öldürən ən böyük qüvvə onun romantizmidir.

Floberin yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən əsərlərdən biri də "Sadəlövh" povestidir. Floberin ömrünün sonlarına yaxın yazdığı bu əsər tam ciddi tərzdə, kinayədən, satiradan uzaqdır. Mövcud gerçəkliyə daim kinayə ilə baxan, dərin yumor hissi ilə yazıb yaradan sənətkarın birdən-birə belə ciddi tərzdə əsər yaratması təsadüfi deyildi. Ağır xəstəlikdən əzab çəkən, bir-birinin ardınca bütün yaxınlarını itirərək yalqız qalan Floberin yaradıcılığında bu ədəbi dəyişiklik, sözsüz ki, təzahür olunacaqdı.

Qustav Floberin yaradıcılığında ənənəvi mübət və ya mənfi qəhrəman demək olar ki, yoxdur. Flober isə həddindən artıq yaxşı və xeyirxah obrazları bəyənmirdi. Hətta onun bu xüsusiyyətinə görə dostlar, xüsusilə də Jorj Sand ona irad tuturdu. Bu baxımdan Flober "Sadəlövh" əsərindəki Felisite ilə özünün yaradıcılıq ənənəsini pozmuşdur.

Əsərlərində, əsasən, əyalət adamlarının həyatından bəhs edən yazıçı, “Sadəlövh” povestində sadə bir insanın, xidmətçi bir qadının bədii obrazını yaratmışdır.

Felisite Floberin yaradıcılıq süzgəcindən keçirilmiş yeni bir obrazdır. O, həyat eşqi ilə çırpınan, həyatının mənasını başqalarına xidmət etməkdə görən özü də hiss etmədən özünü başqalarına qurban verən həssas bir xidmətçi qadındır.

Flober bu qədər səmimi təsvir etdiyi bir obrazın keçmişini ötəri şəkildə təsvir etmişdir. Bunun da səbəbi onun qəhrəmanının özünün daxili-mənəvi aləmi, hiss və həyəcanları, əxlaqı və psixologiyası müəllifin əsas diqqət nöqtəsində olması idi. Floberin dostu rus yazıçısı “Sadəlövh”ü onun əsərlərinin ən uğursuzu hesab edərək qeyd edir: “Orada gicbəsər bir ev xidmətçisi ömrünü onunla başa vurur ki, müqəddəs ruhu təcəssüm etdirən göyərçinlə dəyişik saldığı bir tutuquşu üzərində öz məhəbbətini cəmləşdirir”. (4, 480). Qeyd edilən obraz haqqında biz bir qədər fərqli düşünürük. Yəni yazıçı bu kimsəsiz qızın obrazı ilə daxili məsuliyyət və insani borc naminə özünü fəda etməyi izah etmiş, digər tərəfdən isə onu getdikcə tənəzzül edən burjua cəmiyyətinə nümunə göstərmişdir. Bu baxımdan, A.Puzikovun fikri ilə müəyyən mənada razılaşırıq. “Burada kiçik adam haqqında, xidmətçi Felisite, əbədi zəhmətkeş haqqında bəhs olunur, qismətinə düşən müsibətlərə baxmayaraq, o, insanlara olan sonsuz xeyirxahlıq hissini, fədakarlığını, qeyri-adi mənəvi təmizliyini itirmir. Flober heç bir əsərinin qəhrəmanında bu nadir keyfiyyətləri tapmamışdır, budur, indi isə o, sadə xalqın ən yaxşı keyfiyyətlərini simvolizə edən, heç bir xüsusi adı və şan-şöhrəti olmayan bir qadına belə yüksək qiymət vermişdir”. (3, 117)

Əsərdə baş verən bütün hadisələr ilk növbədə qəhrəmanın daxili, psixoloji aləminin ayrı- ayrı nüanslarının açılmasına xidmət edir. Felisite obrazı bütün dolğunluğu ilə bu əsərdə təsvir olunan bütün epizodlarda ifadə olunmuşdur. Yazıçı, ilk növbədə, qəhrəmanın əsas psixoloji “keyfiyyəti” olan sadəlövhlük anlayışına aydınlıq gətirmək istəmişdir. Müəllif belə hesab edirdi ki, bu xüsusiyyət heç də səfehlik, axmaqlıq əlaməti deyildir. Digər tərəfdən, o oxucu kütləsinə demək istəmişdir ki, sadə insanların da zəngin mənəvi aləmi olur, onlar da böyük məhəbbətlə sevə bilir, özlərini təmənna ummadan fəda edə bilirlər.

Felisitenin mənəvi saflığı, daxili zənginliyi əsərdə onun bacısı və onun uşaqlarına göstərdiyi qayğıda da təsvir olunur. Xüsusilə də, onun bacısı oğlu Viktoru balasıtək sevməsi, qayğısına qalması, Viktorun həlakından sonra hədsiz dərəcədə kədərlənməsi epizodu da Felisitenin dərin mənəvi aləminin göstəricisi hesab oluna bilər.

Felisitenin kimsəsiz qoca olan Kolmiş babaya göstərdiyi qayğı artıq bəsit bir sadəlövhlük yox, daxili zənginlikdir: “Felisite qoca üçün döşək tapıb gətirdi, komasını səliqəyə saldı. Kolmişin xərçəng xəstəliyinə tutulduğu məlum olanda isə qızın qayğıkeşliyi birə-iki artdı; o, hər gün qocanı yuyundurur, hərdən ona kökə gətirir, havaya çıxardır, uzanmaq üçün samanın üzərində ona yer düzəldirdi”. (2, 38)

Fikrimizcə, əsərin baş qəhrəmanının dərin mənəvi-psixoloji və ruhi dünyasının açılmasında mühüm rol oynayan epizodlardan biri də tutuquşu ilə bağlı motivdir. Yazıçı Felisitenin yüksək insani keyfiyyətlərə malik olmasını bu quş ilə olan münasibətində göstərir. Bütün yaxınlarını itirən Felisite dinə pənah gətirir. Onun yeganə təsəllisi tutuquşu olur. Tutuquşu öləndə isə onun müqəvvasını hazırlayıb otağında saxlayır. Hələ çox uzun zaman öncə kilsədə Məryəmin başı üzərindəki “müqəddəs ruh”un şəklini görən Felisite yaşlananda bu quşla “müqəddəs ruh”u öz beynində eyniləşdirir

Öz sadəlövh dini dünyagörüşünü formalaşdıran və bütün mənəvi- ruhi ideallarını tutuquşunun üzərində cəmləşdirən Felisitenin ruhu, sanki, ölüm ayağında bu tutuquşu ilə qovuşur: “Onun dodaqları gülümsəyən kimi oldu. Ürəyi getdikcə daha ağır-ağır, fəvvarənin suyu qurtardığı kimi, daha yavaş-yavaş, hiss olunmadan döyünürdü. Və son dəfə nəfəsi ağzından çıxanda ona elə gəldi ki, geniş səmalarda nəhəng bir tutuquşu onun başı üzərində uçur.” (2, 57)

Zənnimizcə, şəxsi həyatı və bədii yaradıcılığında mövcud gerçəkliyə daim kinayə ilə baxan bir yazıçının ömrünün sonlarına yaxın, mənəvi və psixoloji böhran keçirdən sənətkarın əsəri üçün belə bir mövzu seçməsi təəccüblü hal deyil. Demək olar ki, bu obraz müəllifin indiyə qədər yaratdığı qəhrəmanların bədii yekunu və Floberin avtoportreti idi. Yazıçı bu əsərdə Felisite vasitəsi ilə daha

çox şəxsi hiss- həyəcanlarını ifadə etmişdir. Daha dəqiq desək, Flober öz şəxsi hisləri ilə bu qəhrəmanı zənginləşdirmişdir.

Ədəbiyyat siyahısı:

1. Cəlil Nağıyev.Klassik fransız ədəbiyyatından yeddi portret. Bakı, “Elm və təhsil” 2014, 248 s.
2. Qustav Flober. Sadəlövh. Bakı, “Qanun”, 2014, 140 s.
3. А. Пузиков. Пять портретов. Бальзак. Флобер. Мопассан. Золя, М.: Издательство Художественной литература, 1972, 464 s.
4. Б. Г. Реизов. Творчество Флобера, М.: Государственное Издательство Художественной Литературы, 1995, 524 s.
5. В. Е. Шор. Флобер, Краткая Литературная Энциклопедия, т. 8, Флобер — Яшпал. —М.: Издательство «Советская Энциклопедия», 1975,
6. Ш. Сент-Бёв. Литературная портреты. Критические очерки. М. Издательство “Художественной Литература”, 1970, 607 s.

**Z.Rasulzadeh**

## Description of the spiritual world of women in the works of Gustave Flaubert "Madame Bovary" and "Naive"

### Summary

The article analyzes female characters from Gustav Flober's "Madame Bovari" and "Sadaulovh". "Madame Bovari" explains the perceptions that occur in the spiritual and spiritual world of man, which are not understood with reason and consciousness. At the same time, Flober Emma laughs laughingly at the woman who lives with romantic desires, which she writes to her with the image of Emma. Flober sees the roots of this widely spread phenomenon, such as family fidelity, in immorality in bourgeois marriages. Along with all, Emma is the only living thing in the world, which is sometimes justified. The novel is criticized by the existing social structure, which is an enemy of real human emotions.

One of the other important works in the author's works is the "Sadovh", which violates the tradition of Flober Felicity, which he has continued throughout his creative career. Flober explains the description of the work fully with the image of Felicity. The main psychological quality of Felicity is its naivety. The idea of Flober was that it was not a stupid, foolish thing. At the same time, it also indicates that simple people also have a rich internal world, they have a lot of love and sacrifice.

It is not surprising that a writer, who is constantly keenly interested in the current reality, chooses such a subject at the end of his creative work. This image is the artistic summary of the creator's creations so far, and the self-portrait of Flober. In this work, the writer expressed more personal feelings through Felicity, and more precisely, enriched this hero with his own personal feelings.

Key Words: female image, internal world, criticism of romance, bourgeois society, sarcastic

З. Расулзаде

**Описание душевного и духовного мира женщины в произведениях Гюстава Флобера "Мадам Бовари" и " Наивный"**

**Резюме**

В статье анализируются женские персонажи из произведений Густава Флобера «Мадам Бовари» и «Садаулов». «Мадам Бовари» объясняет восприятие, которое происходит в духовном и духовном мире человека, которое не понимается разумом и сознанием. В то же время Флобер Эмма смеется над женщиной, которая живет романтическими желаниями, и пишет ей с изображением Эммы. Флобер видит корни этого широко распространенного явления, такого как семейная верность, в безнравственности буржуазных браков. Вместе со всем, Эмма - единственное живое существо в мире, что иногда оправдано. Роман подвергается критике со стороны существующей социальной структуры, которая является врагом реальных человеческих эмоций.

Одной из других важных работ в творчестве автора является «Садов», который нарушает традицию Флобера Фелисити, которую он продолжил на протяжении всей своей творческой карьеры. Флобер объясняет описание работы полностью изображением Фелисити. Основным психологическим качеством Фелисити является ее наивность. Идея Флобера заключалась в том, что это не глупая, глупая вещь. В то же время это также указывает на то, что у простых людей также есть богатый внутренний мир, у них много любви и жертв.

Неудивительно, что писатель, который постоянно остро интересуется текущей реальностью, выбирает такой предмет в конце своего творчества. Этот образ представляет собой художественную сводку творений создателя и автопортрет Флобера. В этой работе писатель выразил больше личных чувств через Фелисити, а точнее, обогатил этого героя своими личными чувствами.

Ключевые слова: женский образ, внутренний мир, критика романтики, буржуазное общество, саркастический

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 25.04.2019
**Filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy** tərəfindən çapa tövsiyə olunmuşdur.